# Ana harayı ilə çağlayan Şəlalə

*(Əvvəli ötən sayımızda)*

Ana mövzusu yaradıcılığında ana xətti təşkil edən Şəlalə Ana şair kimi bu missiyanı layiqincə doğruldub. Əhməd Cavad "Göygöl" şeiri ilə, C.Cabbarlı "Ana" şeiri ilə ədəbiyyatda öz möhürlərini vurduqları kimi, Şəlalə xanım da Ana ilə bağlı silsilə şeirləri ilə poeziyamızda özünəməxsus tərzdə dəyərli söz-sənət inciləri yaradıb. Demək olar ki, bütün söz adamları bu müqəddəs mövzuda yazıb. Bu baxımdan da bu çoxluğun - Ana ilə bağlı saysız-hesabsız şeirlərin yanında yaxşı şeir nümunəsi, gözəl sənət əsəri yazıb-yarada bilmək heç də asan məsələ deyil. Amma Şəlalə xanımın Ana mövzulu şeirlərinin hamısı bənzərsiz sənət nümunələridir. Şama aşiq pərvanələr özlərini şamın ətrafında dolanıb -fırlanmaqla şəhid etdikləri kimi Şəlalə xanım da əziz anasına duyduğu sonsuz sevgi ilə bu mövzuya özünün yaradıcılıq enerjisinin gücünü həsr etməklə əbədiyaşar poeziya nümunələri yazmağa nail olub. "Anama" adlı şeirinə üz tutaq:

Qarış-qarış adladığın ömür yolunun
Qırış-qırış izi qalıb üzündə, ana.
Ürəyinin buludundan yağan dolunun
Nəmi qalıb, sisi qalıb gözündə, ana.

Fikir verin: qarış-qarış addımlanan ömür yolunun ananın üzündə, üz cizgilərində saldığı qırışlar həyatın - yaşanan ömür yolunun hansı çətinliklərdən gəlib-keçməsini ifadə edən fəlsəfi duyğulardır. Həyatdakı atdığın addımların insan üzündən - bənizindən təsirsiz ötüb-keçmədiyi bildirilir. Bununla ayağınla gəzib-dolaşdığın dünyanın əndişəsini başın çəkdiyi fikri önə çıxır. Çünki dünyanı ayaqla gəzsən də, gördüklərin - çəkdiklərin başında - üzündə, bənizində qırışlar şəklində naxışlar - silinməz izlər buraxır. Bu əndişələri isə bala ucundan canını oda yaxan müqəddəs varlığın - ananın canından - ruhundan gəlib-keçdiyi fikri ifadə olunur:

İndi daha güzgülərdən küsüb gözlərin,
Hanı bir vaxt ordan sənə boylanan gəlin?..

Bu sualla cavanlığını, gözəlliyini övladları yolunda qurban verən ananın bədii portreti gözümüz önünə gəlir. Ona görə də: "Nədir çarə? Daşa basım ötən günləri, ya da bütün güzgüləri, özün de, ana?" -ritorik sualı ilə şeiri tamamlayan müəllif ananı qocaldan əziyyətli günləri daşlayımmı - qovummu söyləyir, yaxud sənin simandakı qırışları göstərən güzgülərimi vurub sındırım, - deyir. Bu da mümkünsüzdür, əlbəttə. Ötən günləri daşlayıb - qovmaq, insan həyatından keçmişi silmək də mümkün deyil, güzgüləri sındırmaqla üzdə qocalıq qırışları salan cizgiləri də silmək mümkünsüzdür. Bu misralarla, əslində Şəlalə xanım ana qayğıkeşliyinin, ana zəhmətinin əvəzinin ödənilə bilməyəcəyini, ana haqqının geriyə qaytarıla bilməyəcəyini diqqətə çatdırır. Sanki, kitabda bu şeirin ardınca gələn. hər bir bəndi üç misradan ibarət olan ikibəndlik "Anam" şeiri yuxarıdakı şeirdə söylənilənlərin məntiqi davamıdır:

Ana olub dörd balaya,
Çox səbr etdin dərd-bəlaya...
Səbrinə qurbanam, ana!..

Axır daşdı səbir kasan;
Qəbri bildin rahat, asan...
Qəbrinə qurbanam, ana!..

Beləcə, övladları yolunda səbirlə zillətlərə dözüb, əzab çəkən ana bir gün bu möhnət, dərd - qəm içində ömrünü başa vurur. Beləcə, ana adlı müqəddəs varlığın əbədiyyətə qovuşan obrazı xəyalımızda canlanır. Kitabda növbəti şeir kimi verilmiş nümunə də elə bil ki, yuxarıdakı əbədiyyət mənzərəsinin davamıdır və ya onun təsiri ilə yazılıb:

Açılmasın səhərim
Sən yuxuma gələndə...

Artıq əbədiyyət dünyasına köç etmiş ana ilə övladı ancaq yatanda yuxuları vasitəsilə "görüşə bilir". Həmin "görüş"ün bitməməsi üçünsə - anadan ayrılmamaq üçünsə "açılmasın səhərim", - deyə özünə ölüm arzulayır.




"Səndən sonra" adlı nümunədə də müəllif anasızlığı çox ağır faciə kimi təsvir edir:

At nədir, yuxuma gəlsə bir ilxı,
Murada çataram? Çin olar yuxum?
Səadət deyilən, sadəcə, ilğım!..
Səndən sonra, sənsiz, ana!..

Yuxuyozma ilə bağlı qənaətlərdən çıxış edən Şəlalə Ana, yuxuda at muraddır, deyirlər, amma səndən sonra yuxuma bir at yox, bir at ilxısı girsə belə, mən muradıma - arzuma sənsiz çata bilmərəm, ana, - deyir. Arzumurada qovuşmaq insan üçün səadət tapmaq kimi mənalandırılırsa da, anasız dünya mənə heç vaxt xoşbəxtlik, səadət duyğusu yaşada bilməz deyə, anasızlığı səadət duyğularından məhrum olma halı kimi mənalandırır.

"Bu yaz da çiçəklər açıldı sənsiz...", "Əllərin" adlı şeirlərində də Şəlalə xanım ana nisgilli duyğuların bədii ifadəsini verir, kövrək, həzin, nostalji duyğularını dilə gətirərək, ana adlı müqəddəs varlığın əvəzolunmazlığını bəyana çəkir. Bununla həm də oxucularına anaya qarşı sonsuz sevgi hissləri aşılayır.

Şəlalə Ananın poeziyası ruha sığal çəkən, qəlb oxşayandır. Bu da onun sözə həssas münasibətindən qaynaqlanır. Kitabda son şeir kimi verilmiş "Söz var..." adlı şeirdə deyir:

Söz var ki, səhrada çiçək bitirər!
Söz də var, bir anda səni bitirər... -
Keçər yeddi qatdan, yandırar, yaxar,
Söz deyən nə yaşa, nə başa baxar...

Söz var ki, ruhunu qanadlandırar!
Söz də var. Bir anda qanadlar qırar... -
Hər söz sahibinə bənzəyir, amma,
İstər açıq olsun, istər müəmma!

Beləcə, öz yazarlıq ölçüsündən sözə yüksək qiymət verən şair çox haqlı olaraq göstərir ki, hər söz öz sahibinə bənzəyir. Açıq - çılpaq şəkildə deyilən söz də sahibinin nəyə qabil olduğunu göstərir, "müəmma" şəklində deyilən söz də. "Müəmma" sözü burada "gizli", "qapalı", "sirli" mənalarında başa düşülməklə yanaşı, eyni zamanda həm də üstüörtülü, yəni məcazi deyilən, bədii, obrazlı sözləri, fikirləri də öz əhatə dairəsinə alır. Əslində, burada elə sözü bədii, obrazlı demək bacarığından söhbət gedir. Çünki şair, yazıçı sözün bədii, poetik imkanlarından yaradıcı şəkildə istifadə etməklə öz sənətkarlığını təsdiq etdirir. Dahi M. Füzuli də elə ona görə deyirdi ki, "kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz". Şair Şəlalə Qabil qızı Hümmətli - Şəlalə Ana poeziyasında da elə özü kimi saf, səmimi, qəlbi təmiz, zəkası geniş halda bizimlə görüşür.

**_Şakir ALBALI,_**
**_şair-publisist,_**
**_filologiya üzrə fəlsəfə doktoru,_**
**_dosent_**